# Uşaqlar arasında fərdi fərqlər və səbəbləri

**Sevda İbrahim qızı Mansurova**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Slavyan Universiteti*
**E-mail:** mansurova_sevda@mail ru.

**Rəyçilər:** psixol.ü.f.d., dos. G.A. Həsənova,
psixol.ü.f.d. K.A. Rəhimova

**Açar sözlər:** uşaq, ailə, cəmiyyət, təlim, problem, faktor
**Ключевые слова:** ребенок, семья, общество, обучение, проблема, фактор
**Key words:** child, family, society, learning, problem, factor

Hər bir ailədə uşağın dünyaya gəldiyi ilk andan etibarən valideynlər onun tərbiyəsi ilə məşğul olmağa başlayır və bu da son dərəcə onlar üçün vacib məsələ hesab olunur. Belə ki, hər bir valideyn öz övladı üçün hər şeyin ən yaxşısını etməyə çalışır, uşağın ehtiyacı olan hər bir şeyi təmin etməyə çalışır, imkan daxilində bütün imkanlarını onlar üçün sərf etmək istəyirlər və bunu da tərbiyənin əsas amili hesab edirlər. Bəs əslində tərbiyə nədir və uşaqların tərbiyəsi ilə necə məşğul olunmalıdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, ailə psixologiyasında tərbiyə məsələsi çox ciddi bir problemdir və onun əsas şərtləri valideynlər tərəfində son dərəcə həssaslıqla yerinə yetirilməlidir. Lakin bu o demək deyildir ki, tərbiyə məsələsi hamı tərəfindən bir qayda olaraq eyni üslubda tətbiq edilməlidir və hamı bu şərtlərə eyni dərəcədə riayət etməlidir. Tərbiyə verilərkən valideynlər xüsusilə uşağı yaxşı tanımalı və ona uyğun olaraq da yanaşmanı tətbiq etməlidirlər. Dünyaya gələn hər bir uşaq bir fərddir və o təkrarolunmazdır. Bu fərqlilik bir çox tərəflərdən özünü göstərir. Dünyaya gələn uşaqlar, hələ o anlardan etibarən öz fərqliliklərini göstərirlər. Bəziləri sakit, bəziləri çox ucadan, qışqıra-qışqıra ağlayır. Dinamiklik, aktivlik olaraq da uşaqlar arasında fərq aydın şəkildə özünü göstərir. Bəziləri çox aktiv, sanki yerində dura bilmir, bəziləri isə əksinə, astagəl tempdə olurlar. Bu xüsusiyyətlərin anadangəlmə, genetik olaraq ötürülməsi bir faktdır.

Məlum olduğu kimi uşaqlar dünyaya gəldiyi ilk gündən bəzi uşaqlarda beynin sağ yarımkürəsi, bəzi uşaqlarda isə sol yarımkürə dominantlıq təşkil edir. Bu fərq də uşaqlar arasındakı fərdi fərqlərdən biridir. Məşhur rus fizioloqu İ. P. Pavlovun fikirlərinə əsasən baş beyinin sol yarımkürrəsi dominantlıq təşkil edən insanlar "mütəfəkkir" tipə, sağ yarımkürrəsi dominant olan insanlar isə "bədii" tipə aid edilir. Baş beyinin sağ yarımkürrəsinə baxdıqda sol yarımkürrəsi dominant olan uşaqlarda yaşlarının erkən çağlarından etibarən mühakimə yürütməyə, məntiqi düşünməyə meyillik, emosionallığın az olması, təmkinlilik, tənqidçiliyə meyllilik, hər şeyi dərk etməyə, anlamağa çalışmaq, dürüst olmaq və s. bu kimi xüsusiyyətlər özünü göstərir. Bu xüsusiyyətə malik olan uşaqlar çox ciddi, hər bir şeyə maraq göstərən, özündən yaşca böyük olan insanlarla söhbət etməyi sevir, əsasən təkliyi sevir, hay-küyü sevmir, məntiqi oyunlarla oynamağı çox sevir, düşündürücü məşğuliyyətləri, xüsusilə də dəqiq elməri çox sevir və məntiqi düşünürlər. Belə uşaqlar hələ uşaq yaşlarından bu xüsusiyyətlərinə görə öz yaşıdlarından fərqlənirlər. Bu fərq özünü onların danışığında, davranışında, rəftarında aydın şəkildə göstərir. Onlar yaşlı insanlarla daha çox oturub-durur, onlarla söhbət edir, sanki yaşlıları yamsılayırlar və daha çox atalarına meyilli olurlar. Bu fərqliliyə malik qız uşaqlarında isə hət-

ta özlərini oğlan uşağı kimi aparmaq xüsusiyyəti də özünü göstərir. Belə uşaqlar gələcəkdə aktiv həyat tərzini sevir, liderliyə meyilli olurlar, təşkilatçılıq xüsusiyyətləri yüksək olur, araşdırmağı xüsusilə sevirlər. Baş beynin sol yarımkürəsi sağ yarımkürəyə nisbətən dominant olan uşaqlar isə fərqli xüsusiyyətlərə malik olurlar. Onlar əsasən yaradıcı tipə məxsusdurlar və təbiətə çox yaxındırlar. Belə uşaqlar bilikləri kitabdan oxuyaraq əldə etməkdənsə, gəzərək, müşahidə edərək, özləri təcrübə olaraq yaşayaraq öyrənməyi daha üstün tuturlar. Yaradıcı tipə məxsus olduqları üçün xüsusilə həssas olurlar və emosionallığı ilə seçilirlər. Digərlərinin səs tonu belə onların əhvalını dəyişməyə, ürəyini sındırmağa kifayət edə bilər. Bununla yanaşı özləri də digərlərinə qarşı münasibətdə eyni həssaslığı gözləyirlər. Düşüncə tərzləri də digər uşaqlardan seçilir. Onlar obrazlı düşünür, fərqli mühakimə edirlər. Yaradıcı tipə məxsus olduqlarından əhvalları da dəyişkən olur. Onlar bəzən şən əhval ruhiyyədə, bəzən sakit, fikirli, bəzn isə hay-küylü olurlar. Hərdən tək qalmağa üstünlük verirlər. Xüsusilə hümmanitar elmlərə maraq göstərirlər. Belə uşaqlar analarına daha çox meyilli olurlar.

Məlum olduğu kimi beyin yarımkürələrini dominantlığına görə fərqlilik uşaqlarda fərqli xüsusiyyətlərin formalaşmasına zəmin yaradır. Bu baxımdan valideynlər uşaqlarını tərbiyə edərkən bu məqamları diqqət mərkəzində saxlamalı, uşaqlarda hər iki beyin yarımkürəsinin inkişaf etməsi üçün, düzgün tərbiyə üsulu seçməlidirlər. Düzgün tərbiyə üsulunu seçmək hər iki yarımkürənin inkişafını təmin etmək, intellektuallıq və emosionallığın harmonik şəkildə inkişafını təmin etməkdir.

Uşaqlarda fərqli xüsusiyyətlər həm də vegetativ sinir sisteminin iki şöbəsi, simpatik və parasimpatik şöbələrə əsasən də yarana bilər. Bu onların psixolojı xüsusiyyətlərinə əhəmiyyətli təsir göstərir və anadangəlmədir. Simpatik və parasimpatik şöbələrə əsasən uşaqlar arasında fərqliliyi təhlil edərkən qeyd edə bilərik ki, simpatik sinir sistemi üstünlük təşkil edən uşaqlar iri, parlaq gözlərə malik olur, dərisi ağ, zərif, quru və soyuq olur. Onlar, adətən, qədd-qamətli, mütəhərrik, bir yerdə qərar tuta bilməyən, gəşəng, incə olurlar. Belə uşaqlar hər şeyə maraq göstərirlər, ünsiyyətcildirlər, tez yorulmurlar, enerjili, aktivdirlər. Parasimpatik sinir sistemi üstünlük təşkil edən uşaqlar isə solğun dərili, nəzərə çarpmayan olurlar. Onların əlləri, barmaqları qalın, əllərinin içi tez tərləyir, o qədər də iştahaları olmur. Enerjiləri az, passiv, emosionallıqları az olurlar. Həyəcanlı və vasvası xüsusiyyətlərə meyilli olurlar.

Qeyd etdiyimiz kimi sinir sisteminin şöbələrinə əsasən də biz uşaqlar arasında fərqli xüsusiyyətlərin olduğunu gördük. Məhz bu fərliliyi də nəzərə alıb tərbiyə məsələsində xüsusilə tətbiq etməliyik. Valideynlər hələ erkən yaşlardan simpatik sinir sistemi üstünlük təşkil edən uşaqlarda ehtiyatlılıq, təvazökarlıq, sadəlik, ədəblik, zəhmətkeşlik, təmkinlilik, parasimpatik sinir sistemi dominant olan uşaqlarda isə ünsiyyətçillik, diribaşlıq, çeviklik, öz gücünə imkanlarına inam, qətiyyətlilik tərbiyə etməlidirlər.

Uşaqlar arasında daha bir fərq isə temperament tipinə əsasəndir. Fərdi xüsusiyyətlər arasında temperament daha çox özünü göstərir və o hərəkətlərdə, davranışda, fəaliyyətdə, hər hansı bir işlə necə məşğul olduqda, emosionallıqda büruzə verir və insanın xarakterinə ciddi təsir göstərir. Temperamentin xolerik, sanqvinik, fleqmatik və melanxolik kimi tipləri ayırd edilir. Bu xüsusiyyətlərin Bildiyimiz kimi hər bir insanda temperament tiplərinin dördünün də əlamətləri mövcud olur. Lakin hər bir insanda hələ uşaqlıqda temperamentin bir tipi daha üstünlük təşkil edir və bu tip onun xarakterik xüsusiyyətlərini şərtləndirir.

Xolerik temperamentinə məxsus olan uşaqlar təbiətcə yorulmaz, məqsədyönlüdürlər, liderlik xüsusiyyətinə malikdirlər. Lider özünün işgüzar və şəxsi keyfiyyətləri, ünsiyyətə girmək, adamlarla rabitə yaratmaq qabiliyyəti ilə fərqlənir. (1, s. 225). Onlar cəsarətli, mərd, qoçaq, mübarizdirlər. Bəzən sərt və kobuddurlar. Valideynlər bu tipli uşaqlarda tərbiyəni düzgün

aparmadıqda yuxarıda sadalanan keyfiyyətlər ifrat dərəcədə özünü göstərir. Onlar tərs, davakar olur, emosiyalarını cilovlamağı bacarmırlar, çox qəzəbli olurlar. Xolerikdən fərqli olaraq fleqmatik temperamentli uşaqlar təbiətcə az hərəkətli, astagəl, qismən qaradinməz, azdanışan, sakit olurlar. Bu tipə məxsus uşaqlar özünü ələ almağı bacarır, emosiyalara asanlıqla qapılır, işgüzar olur, hər hansı bir işə səbirlə, təmkinlə girişir. Fleqmatik uşaqlar da yorulmazdırlar, lakin astagəl, səbirli və təmkinlidirlər. Belə uşaqlar qarşılarına məqsəd qoyur və o məqsədə doğru səbirlə, təmkinlə irəliləyirlər. Bu yolda qarşılarına çıxan maneələri sakitliklə dəf edir və təmkinlə yollarına davam edirlər. Belə uşaqlar bəzən mübarizə apararkən lazım gələndə geri çəkilir, meydanı xoleriklərə və sanqviniklərə buraxırlar. Onlar sülhsevərdilər və onları özündən çıxarmaq asan deyildir. Hisslərini də asanlıqla biruzə vermirlər və sakit yaşayırlar. Bir iş görməmişdən əvvəl çox düşünür, götür-qoy edirlər və ehtiyatla yanaşırlar. Bəzən valideynlər uşaqları fleqmatik olduqda onların sakit, süst, passiv, tənbəl olduqlarına görə əsəbiləşirlər. Əksinə, düzgün tərbiyə olunduqda onlarda erkən yaşlardan fəallıq, emosionallıq formalaşır. Emosiyaların məktəbəqədər yaşda ən yüksək səviyyəsi özünü sosial emosiyalarda göstərir (2, s. 202).

Sanqvinik temperament tipinə məxsus uşaqlar cəld, dərhal situasiyaya bələdləşən olurlar. Onlar işgüzar, fəal, enerjili və yorulmazdırlar lakin çətinliklə üzləşdikdə, onu aradan qaldırmır, sadəcə ondan yan keçirlər, təhlükəli, çətin işlərə girişmirlər. Templəri cəlddir, tez düşünür, tez-tez danışır, hazırcavabdır və heç vaxt söz altında qalmırlar. Belə uşaqlar hər hansı bir emosional vəziyyətdə uzun müddət qalmırlar, əsasən əhvalları şən olur. Sanqviniklər təbiət etibarı ilə optimist olduqlarından bir yerdə qərar tuta bilmir, ətrafdakılara qarşı mehribandırlar və hamının köməyinə çatmağa cəhd edirlər. Belə uşaqlarda təşəbbüskarlıq, çeviklik, diribaşlıq özünü göstərir. Onlar bir yerdə qərar tuta bilmirlər, tez-tez ziyanlıq törədirlər. Belə uşaqlar düzgün tərbiyə olunmadıqda fikirləri dağınıqlıq, dalğın olurlar və onlarda tələskənlik, səthilik, qeyri-ciddilik kimi mənfi xüsusiyyətlər formalaşır.

Melanxolik temperamentli uşaqların hərəkətləri ləng, passiv və işgüzarlıqları aşağı olur. Onlar tez yorulur və xüsusilə həssas, emosional, qapalı olurlar. Bu temperament xüsusiyyətinə malik olan uşaqlar hər hansı bir çətinliklə rastlaşarkən ümidsizliyə qapılır, həyəcanlanırlar. İfrat dərəcədə həssasdırlar (3, s. 459). Hər şeydən inciyir və tez küsürlər. Xüsusən də belə uşaqlarda mənfi emosiyalar üstünlük təşkil edir, həyatlarında baş verən hər bir şeyi ürəklərinə salırlar, çox götür-qoy edirlər və pessimistliyə qapılmağa meyilli olurlar. Bununla yanaşı onlar uşaqlıqdan qapalı, küsəyən və ağlağan olurlar. Ağlayanda için-için ağlayır, mübarizə apara bilmir, asta səslə danışır, problemlə qarşılaşan zaman donub qalır, qarar verə bilmir. Belə uşaqlar düzgün tərbiyə olunmadıqda, onlarda emosiyalara tez, asan qapılmaq, tez mütəəssir olmaq, passivlik, qorxaqlıq, tənhalığa meyillik kimi xüsusiyyətlər formalaşa bilər. Hər bir valideyn sadalanan bu kimi hallara tərbiyə zamanı xüsusilə diqqət etməli və olara qarşı çox diqqətli olmalıdırlar. Valideynlər xüsusilə onlarda mübarizə aparmaq, öz hüquqlarını qorumaq xüsusiyyəti formalaşdırmalı və onların son dərəcə həssaslığını nəzərə alıb buna müvafiq davranmalıdırlar. Bu keyfiyyətlər nəzərə alınmarsa, seçilmiş peşə sahəsində uğur qazanmaq olar (4, s. 193).

Valideynlər, müəllimlər və tərbiyəçilər nəzərə almalıdırlar ki, uşaqlar temperament tipi anadangəlmədir, və fərdidir. Bu da məlum faktdır ki, uşaqda anadan gəlmə olan temperament tipini dəyişdirmək qeyri mümkündür. Temperament insanın təbiətidir, o, xarakterin formalaşmasının əsasında durmalıdır. Bəzən belə hallarla çox tez-tez rastlaşırıq ki, valideynlər uşaqlarını olduğu kimi deyil, öz istədikləri kimi görmək istəyirlər. Bəzən bu kimi hallarla müəllim – şagird, tərbiyəçi-şagird münasibətlərində də rastlaşırıq. Uşaqların anadangəlmə olan tempe-

rament tipini dəyişməyə cəhd etmək onun təbiətinə, naturasına zidd getmək deməkdir. Onu olduğundan başqa cür davranmağa məcbur etməkdir. Valideynlərin tərbiyə zamanı yol verilməz hesab edilən bu kimi qərarları uşaqda hətta bəzi fəsadlara da gətirib çıxara bilər. Belə hallar əsasən valideyn və uşaqların temperament tipinin üst-üstə düşmədiyi hallarda yaranır. Tərbiyə prosesində uşaqların temperament tipi xüsusilə nəzərə alınmalı və ona müvafiq olaraq da fərdi yanaşma tətbiq edilməli və tərbiyə üslubu seçilməlidir.

Qeyd edilən fərqliliklərlə yanaşı oğlanlar və qızlar arasında olan cinsi fərlilik də xüsusilə vizual olaraq özünü göstərir. Bu fəqlilik həm bioloji, həm də sosioloji sferada özünü göstərir. Cinslər arasında fərqlər yetkinləşmə sürətinə görə də özünü göstərir. Bu dövrdə qızlar oğlanlardan daha tez yetkinləşməyə başlayır.

Baxmayaraq ki, oğlanlar bütün yaş dövrlərində bədəncə qızlardan daha böyük olurlar, onlar fiziki təsirlərə, ağrılara qarşı qızlardan həssas olurlar. Bununla yanaşı oğlan uşaqlarında doğuş prosesi qızlardan daha çətin olur. Qızlar oğlanlara nisbətən ana bətnindən daha asan və problemsiz ayrılırlar. Oğlan uşaqları infeksion xəstəliklərə daha tez tutulur və tələf olurlar. Oğlanlar fiziki cəhətdən güclü, möhkəm olmaqlarına baxmayaraq qızlara nisbətən daha həssas olurlar və daha tez emosional zədə alırlar. Psixi sferasında pozuntularda da oğlanlar qızlarla müqayisədə daha çox həssas olurlar və psixoloji stresslərə qarşı daha dözümsüz olurlar. Məktəbəqədər yaş dövründə oğlanlar qızlardan daha aqressiv və impulsivdirlər. Oğlanlar qızlara nisbətən liderliyə daha çox meylli olurlar. Bu fərqlər erkən yaşlardan büruzə verdiyinə görə və araşdırmaların nəticələrinə əsasən bioloji səbəblərlə şərtlənir.

Bununla yanaşı oğlan və qızlar arasında fərdi fərqlər həmçinin sosioloјı sferada da özünü göstərir. Bu fərqlilik isə uşağın doğulub, böyüdüyü cəmiyyətin norma və qanunları, mental dəyərləri çərçivəsində yaranır və inkişaf edir.

**Məqalənin aktuallığı.** Uşaqlar arasında mövcud olan fərdi fərqlərin xarakterik aspektlərin araşdırılmasının daim diqqət mərkəzində olduğunu və məqalənin də məhz bu kimi vacib bir problemə həsr edildiyini nəzərə alsaq, onu aktual hesab etməliyik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə uşaqlar arasında fərdi fərqlər fərdin sinir sisteminin növü baxımından təhlil edilmişdir. Həmçinin, oğlan və qızların temperament tipinin xüsusiyyətlərindən asılı olaraq, cinsi və sosial fərqlərin nəzərə alınmasına xüsusi diqqət yetirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisa və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də məktəbəqədər tədris müəssisələrinin tərbiyəçiləri, praktik psixoloqlar, valideynlər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003, 354 s.
2. L.Ş.Əmrahlı, N.T.Rzayeva. Uşaq psixologiyası. Bakı: Nurlan, 2015, 344 s.
3. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı: Çinar-çap, 2002, 620 s.
4. M. Vəliyev, A. Mustafayev. İnkişaf və yaş psixologiyası. Bakı: Elm, 2013, 297 s.
5. С.В.Ковалев. Психология современной семьи. М.; Просвещение, 1988, с. 208

**С.И. Мансурова**

## Индивидуальные различия между детьми и их причины

## Резюме

В статье рассматриваются отдельные аспекты индивидуальных различий, которые существуют между детьми. Эти различия были исследованы, в первую очередь в плане доминирования полушарий головного мозга. Затем были проанализированы индивидуальные различия между детьми с точки зрения типа нервной системы индивида. Наряду с этим особое место в статье заняло рассмотрение половых и социальных различий между мальчиками и девочками в зависимости от особенностей типа их темперамента.

**S.I. Mansurova**

## Individual differences between children and their causes

## Summary

The article considers some aspects of individual differences that exist between children. These differences were investigated, primarily in terms of the dominance of the hemispheres of the brain. Then the individual differences between the children were analyzed in terms of the type of the individual's nervous system. Along with this, a special place in the article was taken by the consideration of sexual and social differences between boys and girls, depending on the characteristics of their temperament type.

**Redaksiyaya daxil olub:** 04.11.2021